## 2018-ci ilin yanvar-oktyabr aylarında Asiya və Yaxın Şərq ölkələrindən gələn səyahətçilərin sayında böyük artım müşahidə olunur.

Oktyabr ayında xarici vətəndaşlar tərəfindən Azərbaycana edilən səfərlərdə 2018-ci ilin bu vaxta qədərki dövrünədək müşahidə olunan tendensiyalar davam edir. Belə ki, yanvar-oktyabr aylarında Yaxın Şərq və Asiya ölkələrindən gələn səyahətçilərin sayında xeyli artım müşahidə olunur.

10 ay ərzində Yaxın Şərq ölkələrindən gələn səyahətçilərin sayının keçən ilin müvafiq dövrü ilə müqayisədə 42%, Asiya ölkələrindən gələn səyahətçilərin sayının isə 57% artması diqqətəlayiqdir. Rusiya və Türkiyədən gələn səyahətçilərin sayında 3,3% və 2,5% artım tempi müşahidə edilib. Gürcüstandan gələn ziyarətçilərin sayında isə daha yüksək artım olub. Belə ki, 2018-ci ilin yanvar-oktyabr aylarında Gürcüstandan Azərbaycana gələn səyahətçilərin sayı keçən ilin eyni dövrü ilə müqayisədə 11,4% artıb.

Ümumilikdə, ölkəyə daxil olan səyahətçilərin ümumi artım tempi yanvar-oktyabr ayları üçün 6,1% təşkil edib, səyahətçilərin sayı 2,277 milyondan 2,416 milyona çatıb. Qeyd edilən tendensiya **Qrafik 1-də** təsvir edilib.

Göründüyü kimi, Azərbaycana gələnlər arasında Rusiya vətəndaşları 752 min səyahətçi ilə yenə də birinci yerdə durur. Bütövlükdə, Rusiyadan olan səyahətçilər 2017-ci ilin eyni ayları ilə müqayisədə 3,3% artaraq Azərbaycana gələn bütün xarici vətəndaşların 31%-ni təşkil edir.

**Qrafik 1: 2017 və 2018-ci ilin yanvar-oktyabr aylarında 6 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**




Bu dövrün statistikası ilə əlaqədar ən maraqlı fakt Hindistan və Pakistandan gələn səyahətçilərin sayının müvafiq olaraq 183% və 149% artmasıdır. Belə ki, yanvar-oktyabr aylarında Azərbaycana Hindistandan 31 min, Pakistandan isə 34 min səyahətçi gəlib. Üstəlik, başqa Asiya ölkələrindən gələn səyahətçilər arasında da yüksək artım tempi müşahidə olunub. Müvafiq dövrdə keçən illə müqayisədə Çindən 60%, Türkmənistandan 76%, Cənubi Koreyadan isə 72% daha çox ziyarətçi Azərbaycana səyahət edib. Yekun olaraq Asiya ölkələrindən 2018-ci ilin 10 ayında Azərbaycana səfər edənlərin sayı 178 min nəfərə çatıb.

2018-ci ilin yanvar-oktyabr aylarında Yaxın Şərq ölkələrindən gələn ziyarətçilərin sayı 330 min olub, beləliklə də 2017-ci ilin eyni dövründə Azərbaycana gəlmiş 233 min səyahətçi ilə müqayisədə 42% artım

baş verib. Bu regiondan daha çox səyahətçi Səudiyyə Ərəbistanı, İsrail və Küveytdən gəlib, belə ki, analoji dövrlə müqayisədə qeyd edilən ölkələrdən artım tempi müvafiq olaraq 115%, 228% və 99% olub.

2018-ci ilin oktyabr ayında Azərbaycana gəlmiş səyahətçilərin ümumi sayı 2017-ci ilin oktyabr ayı ilə müqayisədə 3,5% artaraq 212 minə çatıb. Bu artım daha çox Asiya ölkələrindən gələn səyahətçilərin sayının 38%, Yaxın Şərq ölkələrindən və Gürcüstandan gələn səyahətçilərinin sayının isə müvafiq olaraq 31% və 26% artması ilə əlaqədardır. Asiya ölkələri arasında səyahətçilərin sayının artması daha çox Hindistan (113%), Pakistan (64%), Türkmənistan (68%) və Çin (44%) vətəndaşları arasında müşahidə olunur. Türkiyədən gələn ziyarətçilərin sayı isə oktyabr ayında 15% azalıb.

**Qrafik 2** 2018-ci ilin oktyabr ayında ən yüksək göstəricilərlə seçilən altı ölkə və ya regiondan gəlmiş ziyarətçilərin sayındakı dəyişikliyi əks etdirir.

**Qrafik 2: 2017 və 2018-ci ilin oktyabr ayında 6 ölkədən/regiondan gəlmiş xarici səyahətçilər (min)**



**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Miqrasiya Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2018-ci ilin oktyabr ayında və 2018-ci ilin yanvar - oktyabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2017-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2018-ci il | | 2017-ci il | |
|---|---|---|---|---|
| | Oktyabr | Yanvar-oktyabr | Oktyabr | Yanvar-oktyabr |
| Rusiya | 63 745 | 751 908 | 66 228 | 727 577 |
| Gürcüstan | 53 047 | 489 408 | 42 267 | 439 305 |
| Türkiyə | 22 865 | 243 097 | 26 952 | 249 210 |
| Asiya | 20 342 | 178 342 | 14 738 | 113 819 |
| Yaxın Şərq | 18 088 | 329 860 | 13 800 | 233 166 |
| İran | 12 485 | 214 990 | 19 892 | 320 904 |
| Qərbi Avropa | 8 830 | 84 758 | 8 328 | 78 261 |
| Şərqi Avropa | 8 817 | 85 749 | 8 854 | 83 629 |
| Amerika | 2 263 | 23 344 | 2 495 | 19 257 |
| Digər ölkələr | 696 | 7 487 | 677 | 7 488 |
| Afrika | 625 | 6 992 | 455 | 3 988 |
| **CƏMİ** | **211 803** | **2 415 935** | **204 686** | **2 276 604** |